GÜNÜN SİYASİ NƏBZİ



# Laçın zirvəsi: Yeni geosiyasi nizamda müttəfiqlik modeli



## Belə yüksək səviyyəli görüşün keçirilməsi həm də regiondakı güc balansına dair mesajdır

*Müstəqillik Günündə Laçın şəhərində baş tutan Azərbaycan, Türkiyə və Pakistan liderlərinin Zirvə görüşü yalnız diplomatik hadisə deyil, regionda formalaşmaqda olan yeni geosiyasi nizamın təqdimatı idi. Dünyada çoxqütblü sistemin formalaşdığı, güc balansının yenidən formalaşdığı bir mərhələdə, Azərbaycan-Türkiyə-Pakistan əməkdaşlığı müdəni kimlik, suverenlik və qarşılıqlı maraqlar üzərində qurulmuş yeni əməkdaşlıq modelinin mümkünlüyünü sübut edir. Prezidentlər İlham Əliyev, Rəcəb Tayyib Ərdoğan və Baş nazir Məhəmməd Şahbaz Şərifin iştirakı ilə keçirilən görüş, üç strateji tərəfdaş ölkə arasında əməkdaşlığın yeni mərhələyə keçdiyini nümayiş etdirdi. Laçın Zirvə görüşü Azərbaycanın diplomatik manevr qabiliyyətinin, regional təşəbbüskarlığının və strateji müttəfiqlik imkanlarının real nəticəsidir. Bu görüş mühüm siyasi tədbir, həm də yeni dövrün yol xəritəsi kimi tarixə düşdü.*



Xalqımız üçün çox əziz olan bir gündə, Müstəqillik Günündə qardaş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Prezident İlham Əliyev ilə birlikdə Qarabağda və Şərqi Zəngəzurda üçüncü hava qapısı olan Laçın Beynəlxalq Hava Limanının rəmzi açılış lentini kəsməsi və Baş nazir Məhəmməd Şahbaz Şərifin iştirakıyla Laçında Azərbaycan, Türkiyə və Pakistan ikinci Zirvə Toplantısının keçirilməsi bu günü ikiqat bayrama çevirdi. Biri nüvə dövləti olmaqla, üç qardaş ölkənin qalib liderləri Laçından bölgəyə və dünyaya çox önəmli mesajlar verdilər, Azərbaycan, Türkiyə və Pakistanın təşəbbüsüylə yeni birlik formatının (Azərbaycan-Türkiyə-Pakistan Birliyinin) yarandığını dünyaya nümayiş etdirdilər.

"Erməni işğalından azad olunan Laçında Azərbaycan, Türkiyə və Pakistanın Zirvə görüşünün keçirilməsi rəmzi xarakter daşıyır". Bu sözləri Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə keçirilən Laçın Zirvə görüşündə deyib. Dövlət başçısı qeyd edib ki, bu üç ölkəni və xalqı birgə tarix, mədəniyyət və dəyərlər birləşdirir. Bir-birimizin uğurlarına sevinirik, çətin günlərdə bir-birimizin yanında olmuşuq. Azərbaycan, Türkiyə və Pakistan hər zaman suverenlik, ərazi bütövlüyü və ədalətin tərəfində olub. 44 günlük Vətən müharibəsinin ilk günlərindən etibarən Türkiyə və Pakistanın ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstəyə görə bir daha minnətdarlığımızı bildiririk. Azərbaycan da öz növbəsində daim Türkiyənin və Pakistanın yanında olub. Bu gün biz bir daha xalqlarımızın birliyini təsdiqləyirik. Bu, İkinci Zivə görüşüdür. Keçən ilin iyulunda Azərbaycan-Türkiyə-Pakistan Birinci Zirvə Görüşü keçirilib. Əminəm ki, biz bu ənənəni davam etdirəcəyik.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistanın Baş naziri Şahbaz Şərifin Laçına səfəri Azərbaycanın uğurlu xarici siyasətinin mühüm nəticəsi kimi dəyərləndirilir. Bu üçtərəfli əməkdaşlıq artıq ənənəvi dostluq münasibətlərindən çıxaraq sistemli, qarşılıqlı strateji maraqlara söykənən ittifaq modelinə çevrilir. Bu ittifaqı gücləndirən əsas sütunlar isə bunlardır: mədəni və dini yaxınlıq - ortaq tarix, dil və İslam dəyərləri üzərində formalaşan güclü sosial bağlar. Hərbi əməkdaşlıq - hər üç ölkə birgə hərbi təlimlər, müdafiə sənayesi əməkdaşlığı və təhlükəsizlik sahəsində geniş planlar qurur. Siyasi həmrəylik - Qarabağ və Kəşmir məsələlərində qarşılıqlı dəstək, beynəlxalq tribunalarda ortaq mövqelərlə çıxış. Yeni nəqliyyat və enerji dəhlizləri - Zəngəzur dəhlizi, Cənub-Qərb nəqliyyat xətləri və enerji resurslarının paylaşımı ilə bağlı ortaq layihələr. Bu mənada Pakistanın baş naziri Şahbaz Şərifin "Bəxtimiz gətirib ki, Azərbaycan və Türkiyə kimi qardaşlarımız var. Siz dağ kimi arxamızda dayanmısınız" deməyi təsadüfi deyil. Bu üçtərəfli format tədricən türk-İslam dünyasında yeni inteqrasiya modelinin konturlarını yaradır. Bu model Qərb və Şərq blokları arasında alternativ güc mərkəzi kimi önə çıxır.

"Türkiyə, Azərbaycan və Pakistan Avrasiyanın təhlükəsizlik, iqtisadiyyat, enerji və ərzaq sahələrində çoxsaylı çağırışların mövcud olduğu strateji əhəmiyyətli hissələrində yerləşir. Burada baş verənlərin fonunda ölkələrimiz arasında həmrəylik və atılan birgə addımlar seçim məsələsi deyil, zəruri ehtiyacdır". Bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Zirvə görüşündə ifadə edib. Bildirib ki, üç ölkənin Xarici İşlər nazirliklərinə Ankara, Bakı və İslamabad arasında gələcək əməkdaşlıq üçün struktur bazanın formalaşdırılması istiqamətində addımlar atmaq tapşırılıb. Ölkələrimiz arasında ticarət, investisiya, nəqliyyat, enerji, hərbisənaye kompleksi və terrorizmlə mübarizə sahələrində birgə dialoq gündəliyinə dair çərçivələr hazırlanacaq. Türkiyə lideri nəqliyyat sektorunu üçtərəfli əməkdaşlığın strateji sahələrindən biri adlandırıb, həmçinin Ankara, Bakı və İslamabad arasında dialoqun üç ölkənin xalqlarına fayda verəcəyinə əminliyini diqqətə çatdırıb.

Laçında, uzun illər işğal altında olmuş, lakin 44 günlük Vətən müharibəsindən sonra azad edilmiş bir şəhərdə bu cür yüksək səviyyəli görüşün keçirilməsi, həm regiondakı güc balansına dair mesajdır, həm də yeni yaranmaqda olan əməkdaşlıq modelinin rəmzidir. İlham Əliyev çıxışında bu məkanın təsadüfi seçilmədiyini xüsusi vurğulayaraq, üçtərəfli dostluğun tarixi və mənəvi dəyərlərə əsaslandığını qeyd etdi.

Zirvə görüşündə Azərbaycan, Türkiyə və Pakistan xalqlarının tarixi, mədəni və dini kökləri bir-birinə bağlı olduqlarını bildirdilər. Bu əlaqələr yalnız mənəvi bağlarla məhdudlaşmır, həm də siyasi, iqtisadi və hərbi müstəvidə konkret əməkdaşlıq modellərinə çevrilməkdədir. Hər üç ölkə suverenlik və ərazi bütövlüyü prinsipinə sadiq olduqlarını bir daha təsdiqlədilər. Müstəqillik Günü kimi həssas bir tarixdə strateji müttəfiqliyin göstəricisi kimi Pakistan və Türkiyə liderlərinin Azərbaycana səfəri ölkəmizin müstəqilliyinə və dövlətçiliyinə hörmət və dəstəyin bariz nümunəsidir. Laçına səfər açıq şəkildə mesaj xarakteri daşıyırdı. Bu səfərlə faktiki olaraq "Qarabağ Azərbaycandır!" mesajı verildi və bunun mübahisəyə açıq olmadığı bildirildi. Bu, həm Ermənistana, həm də onun havadarlarına ünvanlanan mesajdır ki, artıq Qarabağ və Laçın məsələsi beynəlxalq gündəmdə müzakirə mövzusu ola bilməz.

Azərbaycan Prezidenti İlham Əliyevin iki ölkənin lideri ilə məhz 30 il sonra işğaldan azad olunan, bərpa edilən Laçında görüşməsi tarixi hadisəyə çevrildi. Bu addım, Azərbaycanın ərazi bütövlüyünün de-fakto və de-yure tanınmasının, beynəlxalq platformalarda yeni postmünaqişə statusunun bariz ifadəsidir. Həm Bakı, həm Ankara, həm də İslamabad üçün dəyişkən geosiyasi vəziyyətin müşahidə olunduğu beynəlxalq siyasi hadisələr fonunda görüşün tərəfffüratları xüsusilə izlənilir. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirdiyi infrastruktur layihələrinin ən mühüm mərhələlərindən biri - Laçın Beynəlxalq Hava Limanının açılışı təkcə bir nəqliyyat layihəsi deyil. Bu hadisə həm siyasi, həm iqtisadi, həm də geostrateji baxımdan çoxqatlı və dərin məna daşıyır. Ekspertlərin fikrincə, bu, həm də Azərbaycanın dünyaya yeni geosiyasi reallığın formalaşdığına dair mesajıdır. Laçın aeroportunun açılması bölgənin hərbi və mülki nəqliyyat imkanlarını əhəmiyyətli dərəcədə artırır. İstənilən halda, yüksək dağlıq ərazilərdə yerləşən belə bir obyekt strateji üstünlük deməkdir. Fövqəladə hallar, hərbi daşımalar, sürətli logistik müdaxilələr - bütün bunlar daha operativ şəkildə həyata keçirilə bilər. Bu hava limanı Cənubi Qafqazın əsas geoiqtisadi layihələri ilə sinxron şəkildə inkişaf etdirilir. Zəngəzur dəhlizi, Bakı-Tbilisi-Qars dəmiryolu və digər nəqliyyat xətləri ilə inteqrasiya Laçını regional logistik mərkəzə çevirə bilər. Azərbaycan müharibədən sonrakı mərhələdə təşəbbüsü ələ almaq, ərazi bütövlüyünü faktiki olaraq tam bərpa etmək və bu zəmin üzərində regional əməkdaşlıq platforması yaratmaqla Ermənistana açıq şəkildə bildirir: sülhə gəlmək alternativsizdir.

2021-ci ildə Azərbaycan, Türkiyə və Pakistan arasında Bakı Bəyannaməsi imzalanıb. Bəyannamə dövlətlər arasında strateji tərəfdaşlığın hüquqi əsasını möhkəmləndirib. Sənəddə Azərbaycan-Türkiyə-Pakistan arasında üçtərəfli əməkdaşlığın möhkəmləndirilməsinin üç ölkənin xalqlarının inkişafı ilə yanaşı, regional və qlobal sülhün, sabitliyin möhkəmlənməsinə xidmət edəcəyinə dair razılıq ifadə olunub. Transmilli təhdidlərə, xüsusilə terrorizmə qarşı mübarizədə üç ölkə arasında əməkdaşlığın və bu məsələnin birgə həllinin vacibliyi də bir daha təsdiqlənib. Zirvə görüşündə səsləndirilən şərhlər göstərir ki, bu üç dövlət regional və beynəlxalq arenada daha təsirli mövqe nümayiş etdirməyə, həmçinin ortaq maraqlar ətrafında daha sıx koordinasiyaya nail olmağa qərarlıdır.

Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası və dünya dövlətləri ilə sıx əməkdaşlığından söhbət açarkən qardaş Türkiyə və Pakistan birincilər sırasındadır. Çünki rəsmi İslamabad Bakının dostlarını özünə dost, düşmənlərini isə düşmən sayır. "Türkiyə, eyni zamanda Pakistan Azərbaycana siyasi-diplomatik dəstək verdi ki, azərbaycanlı qardaş və bacılarımız torpaqlarının azad edilməsi uğrunda mübarizədə uğura nail olsun". Bu fikirləri Pakistan Baş naziri Şahbaz Şərif Laçın şəhərində 28 May - Müstəqillik Gününə həsr edilmiş konsertdən əvvəl çıxışında deyib. Vurğulayıb ki, bu səmimi qəlbdən gəlirdi və həmin amal dəstəklənməli idi. Ona görə də bu gün transformasiya olub, artıq bir qəlbdə iki ruh deyil, bir qəlbdə üç ruh var. Biz bu şüarı artıq dəyişmişik. Qeyd edək ki, Pakistan İslam Respublikası Asiyanın mühüm geosiyasi mövqeli ölkəsi, nüvə dövləti, İslam Əməkdaşlıq Təşkilatının aparıcı üzvlərindən biridir.

Laçın Zirvəsində hər üç lider Orta Dəhliz və Şimal-Cənub nəqliyyat dəhlizi kimi regional layihələrin genişləndirilməsinin vacibliyini vurğuladı. Bu layihələr yalnız iqtisadi deyil, həm də geosiyasi baxımdan əhəmiyyət daşıyır, çünki Asiyanı Avropa ilə birləşdirən strateji xətlər üzərində nəzarəti artırır və üç ölkəyə daha böyük nüfuz qazandırır. Birgə hərbi təlimlər, müdafiə sənayesi üzrə texniki əməkdaşlıq və terrorla mübarizə sahəsində koordinasiya-üç ölkə arasında təhlükəsizlik əməkdaşlığının əsas istiqamətlərindəndir. Prezident İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın çıxışlarında qeyd olundu ki, süni intellekt, kosmik tədqiqatlar, rəqəmsal texnologiyalar və akademik dəyişmə proqramları sahəsində əməkdaşlıq xalqlar arasında əlaqələrin yeni, innovativ formasını inkişaf etdirəcək. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan artıq Türkiyə iqtisadiyyatına 20 milyard dollardan çox sərmayə yatırıb və Pakistan iqtisadiyyatına 2 milyard dollara qədər sərmayə qoymağa hazırdır. Bu fakt üç ölkə arasında investisiya əlaqələrinin keyfiyyətcə yeni mərhələyə keçdiyini göstərir. Enerji sahəsində əməkdaşlıq, xüsusilə bərpaolunan enerji və enerji təhlükəsizliyi üzrə yeni layihələr, regional enerji xəritəsini dəyişmək gücündədir. Liderlər BMT, İƏT, AQEM, D-8 kimi beynəlxalq təşkilatlarda koordinasiyalı fəaliyyətin davam etdiriləcəyini bildirdilər. Bu yanaşma, xüsusilə beynəlxalq hüququn və ədalətin müdafiəsi baxımından strateji dəyər daşıyır.

Laçında keçirilən Azərbaycan-Türkiyə-Pakistan Üçtərəfli Zirvə Toplantısı ilk növbədə dağlardan yüksələn yeni qüdrətli birliyin, üç qardaş ölkə arasında əməkdaşlığın və dostluğun növbəti təzahürü kimi qiymətləndirilməlidir. Bu üçtərəfli görüş bölgəyə və dünyaya açıq mesaj verir ki, Cənubi Qafqazda yaranmış yeni geosiyasi reallıqla hesablaşmaq zamanıdır. Azərbaycanın öz müttəfiqləri ilə bərabər nümayiş etdirdiyi birlik təkcə regional sabitliyin deyil, həm də balanslı və təhlükəsiz gələcəyin əsas şərtidir. Beləliklə, Laçından dünyaya mesaj verildi ki, Azərbaycan-Türkiyə-Pakistan birliyi kontekstində yeni türk-müsəlman birliyinin formalaşması, Ankara, Bakı və İslamabad dialoqunun davamlı prosesə çevrilməsi artıq danılmaz reallıqdır. Bizim gücümüz birliyimizdədir. Laçın Zirvəsindən verilən açıqlama nəinki üç ölkənin strateji iradəsini həm də regional və qlobal siyasətdə yeni bir güc mərkəzinin formalaşmağda olduğunu göstərir. Regional və qlobal çağırışların fonunda bu üçlük həm öz təhlükəsizliyini, həm də daha ədalətli və balanslı dünya nizamına töhfəsini təmin etmək əzmindədir.

**Mustafa KAMAL,**
**"Respublika".**